# Həftəlik *Bülleten*



**096**

**13 İyun 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycanda tikinti materialları bazarında qiymətlər necədir?**

Son illərdə Azərbaycanda tikinti sektoru iqtisadi inkişafın əsas istiqamətlərindən birinə çevrilib. Dövlətin həyata keçirdiyi genişmiqyaslı infrastruktur layihələri, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, eləcə də əhalinin şəxsi ev tikintisinə marağı tikinti bazarında aktivliyi artırıb. Bu proses isə birbaşa olaraq inşaat materiallarına olan tələbat və onların qiymətlərinə təsir göstərir. 2025-ci ilin ilk yarısına nəzər saldıqda, inşaat materiallarının qiymətlərində müxtəlif istiqamətlərdə dəyişikliklərin baş verdiyi müşahidə olunur. Azərbaycan Statistika Komitəsinin məlumatlarına əsasən, 2025-ci ilin ilk 5 ayında tikinti materiallarının qiymətlərində ortalama 3.5%-5.7% arasında artım qeydə alınıb. Bu artım əsasən bəzi məhsul qruplarında kəskin, digərlərində isə sabit və ya azalma şəklində özünü göstərib. Nəzər salsaq görərik ki, sement bazarında qiymət artımı davam edir. Tikintidə əsas rol oynayan armaturların qiymətində də artım müşahidə edilir. Bunun səbəbi xammalın idxal asılılığı və metal qiymətlərinin beynəlxalq bazarda bahalaşması ilə əlaqəlidir. Taxta məhsullar, xüsusən rütubətli və quru taxtalar, tikintidə geniş istifadə olunur. Quru taxta yüksək qiymətlərlə təklif olunur. Maraqlıdır ki, bu kateqoriyada bəzi məhsulların qiymətində azalma müşahidə olunub. Azalmanın səbəbi bazarda təklifin artması və bəzi məhsulların daxili istehsalla əvəzlənməsi göstərilir. Qiymət artımının əsas səbəbləri kimi logistika və daşınma xərclərini göstərmək olar.



**Azərbaycan və Özbəkistanın birgə yol xəritəsi 30-dan çox layihəni əhatə edir - Yusif Abdullayev.**

Bunu Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev IV Daşkənd Beynəlxalq İnvestisiya Forumunda "Azərbaycan - Özbəkistan: İqtisadi Tərəfdaşlığın Vektoru" panel sessiyasında çıxışı zamanı deyib. Onun sözlərinə görə, investisiyaların cəlb edilməsi Azərbaycanın əsas prioritetlərindən biri olaraq qalır. Abdullayev səmərəli əməkdaşlığa görə Özbəkistanın İnvestisiya, Ticarət və İnfrastrukturun İnkişafı Nazirliyinə minnətdarlığını bildirib. O, elektron ticarət, tikinti kimi sahələrdə fəal əməkdaşlığın inkişaf etdiyini vurğulayıb. "İşğaldan azad edilmiş ərazilərin bərpası Azərbaycan üçün çox vacibdir. Özbəkistanın ən fəal şirkət qruplarından biri tekstil klasterlərinin yaradılması üçün yaşayış komplekslərinin tikintisi ilə bağlı ciddi danışıqlar aparır. İnfrastruktur və avtomobil sənayesində ənənəvi əməkdaşlıq davam edir. Hazırda yığma zavodu fəaliyyət göstərir, burada artıq 9 min "Chevrolet" avtomobili istehsal edilib. Bu, "Made in Azerbaijan" və "Made in Uzbekistan" brendlərini gücləndirir", - Abdullayev vurğulayıb. O, şəhərsalma sahəsində Bakıda yeni layihənin həyata keçirilməsi perspektivlərini qeyd edib. “İyunun 4-5-də nümayəndə heyəti “Ağ şəhər” ərazisinə səfər edib və biz əminik ki, layihə yaxın vaxtlarda həyata keçiriləcək”.



**Azərbaycanda daşınan evlərə tələbat artdı.**

Azərbaycanda daşınan evlərə tələbat artıb.
Alıcılar həm istirahət, həm də biznes üçün ev tikməkdənsə belə daşınan ev almağın sərfəli olduğunu düşünürlər.
Ekspertlər isə deyir ki, belə evlərə marağın artması daşınmaz əmlak bazarındakı qiymətlərə da təsir göstərəcək.
Digər tərəfdən əmlak daşınan olduğu üçün evə çıxarış da tələb edilmir, icra orqanında evin layihəsini təsdiqlətmək kommunal xətlərin çəkilməsinə də kifayət edir.



**Bakıda "Özbəkistan" parkı salınacaq.**

Bakıda "Özbəkistan", Daşkənddə isə "Azərbaycan" parklarının salınması planlaşdırılır. Bunu İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev IV Daşkənd Beynəlxalq İnvestisiya Forumu çərçivəsində təşkil olunmuş "Azərbaycan - Özbəkistan: İqtisadi Tərəfdaşlığın Vektoru" panel sessiyasında bildirib.
"Bu parklar xalqlarımız arasında dostluğun və qarşılıqlı hörmətin simvoluna çevriləcək. İyunun əvvəlində Daşkəndin meri, eyni zamanda mənim yaxın dostum Şavkat Umurzakov Bakıda işgüzar səfərdə idi. Səfər çərçivəsində paytaxtın Ağ Şəhər ərazisində "Özbəkistan" parkının inşa ediləcəyi əraziyə baxış keçirildi. Buna cavab olaraq, bu ayın sonunda Azərbaycan nümayəndə heyətinin Daşkəndə səfəri planlaşdırılır. Həmin səfər zamanı da "Azərbaycan" parkının salınacağı əraziyə baxış keçiriləcək. Bu, iki paytaxt arasında canlı mədəni körpü olacaq", - deyə o qeyd edib.



**Fəlakət və hərbi əməliyyat nəticəsində məhv olmuş evlərin əvəzinə yenisinin tikilməsi qaydası müəyyənləşir.**

Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş, icbari sığortası olan yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının dövlət vəsaiti hesabına tikintisi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu barədə qərar qəbul edilə bilər. Şəhərsalma və Tikinti Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən, tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğu barədə rəyin bildirilməsi üçün sorğunun göndərilməsi ilə bağlı tələb təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına inşa ediləcək yeni çoxmənzilli yaşayış binasının tikinti layihəsinə şamil edilməyəcək. Mülki Məcəlləyə təklif edilən dəyişikliyə görə, bu sıraya təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına tikilmiş yaşayış evlərinə və çoxmənzilli yaşayış binalarının mənzillərinə münasibətdə - həmin evlərin və mənzillərin təqdim edildiyi şəxslərin siyahısı (hər bir şəxsə təhvil verilən yaşayış evi və (və ya) mənzil dəqiq göstərilməklə), yaşayış evlərinin tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, çoxmənzilli yaşayış binasının tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi və istismarına icazə əlavə edilir.



**Tikinti və Quraşdırma üzrə BDPTM-nin “ATMİA” Emalatxanasında tələbələrə təlim keçirildi.**

13 iyun 2025-ci il tarixində Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin “ATMİA” Emalatxanasında ATMİA-nın tərəfdaş üzvü Dinamik Yapı MMC-nin direktoru Rövşən Camallı “Peşə Təhsilində Professional İnkişafın Təşviqi” adlı mühazirə ilə tələbələr qarşısında çıxış etdi. İki saata yaxın keçirilən görüşdə tələbələrə müasir tikinti sektorundakı tələblər, işəgötürənlərin gözləntiləri və peşəkar inkişaf barədə təlim keçirildi. Tədbirin sonunda gənclərin çoxsaylı suallarına cavablar verildi.






**“Kırşehir Ticarət və Sənaye Evi”-nin Bakıda təşkil etdiyi B2B işgüzar görüş tədbirində ATMİA iştirak etmişdir.**

12 iyun 2025-ci il tarixində “Kırşehir Ticarət və Sənaye Evi”-nin Bakıda təşkil etdiyi B2B işgüzar görüş tədbirində ATMİA iştirak etmişdir. Türkiyənin tikinti, tikinti materiallarının istehsalında, inşaat, mühəndislik, memarlıq  və dizayn sahəsində fəaliyyət göstərən aparıcı şirkətlər ilə fərdi görüşlər keçirildi. Görüşlər zamanı əməkdaşlıq imkanları müzakirə olundu, sektordakı yeniliklərlə bağlı fikir mübadiləsi aparıldı. Tədbirdə “Kırşehir Ticarət və Sənaye Evi”nin İdarə Heyətinin sədri cənab Mustafa Yılmaz da iştirak edib, görüşlərin əhəmiyyətinə dair çıxış edib. Keçirilən görüşlər tikinti sektorunda ATMİA-nın beynəlxalq tərəfdaşlığın genişləndirilməsi və yeni işgüzar əlaqələrin qurulması baxımından önəmli addım oldu.



**Hörmətli Sahibkarlar!**

Cari ilin 20 iyun tarixində Bakıda Azərbaycan - Özbəkistan Regionlararası Forum keçiriləcəkdir. Sözügedən tədbirdə iki ölkənin iqtisadiyyat nazirlərinin iştirakı ilə keçiriləcəkdir. İştitak etmək istəyən üzvlərimiz qeydiyyatdan keçmələri xahiş olunur.
050-265-36-34

anons

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: MININGWEEK KAZAKHSTAN 2025**
**Tarixlər: 24-26 iyun 2025-ci il**
**Məkan: İdman Kompleksi Jastar-Kazakhmys', Qaraqanda (Qazaxıstan)**
Beynəlxalq Mədənçıxarma və Kəşfiyyat, Mineral və Kömür Emalı və Metallurgiya Texnologiyaları Sərgisi

**Sərginin adı: STONE INDUSTRY INTERNATIONAL EXHIBITION 2025**
**Tarixlər: 24-26 iyun 2025-ci il,**
**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**
Rusiyada Daş Sənayesi Beynəlxalq Sərgisi. Təbii daş: çıxarılması, emalı və tətbiqi.

**Sərginin adı: DO-WIN TECH 2025**
**Tarixlər: 28 iyun - 01 iyul 2025**
**Məkan: Tehran (İran) Tehran Daimi Sərgisi**
Tehranda Beynəlxalq Qapılar, Pəncərələr və Əlaqədar Sənayelər Sərgisi (İran)

**Sərginin adı: ENVIREX - INTERNATIONAL ENVIRONMENTAL EXHIBITION 2025**
**Tarixlər: 21-24 iyun 2025-ci il,**
**Məkan: Tehran Daimi Sərgisi, Tehran (İran)**
İran Beynəlxalq Ətraf Mühit Sərgisi. Su və Tullantı Suların İdarə Edilməsi və Təmizlənməsi, Ətraf Mühit mühəndisliyi, Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi, Şəhər Avadanlığı və Mühəndisliyi, Ekosistem xidmətləri, çirklənmə, Ətraf Mühitin Mühafizəsi

**Şuşada 49 milyon müqabilində 10 bina tikəcək - ŞİRKƏT AXTARILIR.**

"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" PHŞ açıq tender elan edir. Elanda Şuşa şəhərində D-3 yaşayış massivində nəzərdə tutulan yaşayış binalarının (1-ci mərhələ 10 ədəd bina) tikinti işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Babək Kərimli, Satınalma sektorunun müdiri
Email: bkarimli@shusha.gov.az
Əlaqə telefonu: +994 70 203 05 20



**Zərdabın yollarını təmir edəcək şirkətə 600 minə yaxın - PUL VERİLƏCƏK.**

Zərdab Rayon İHB-nın Zərdab Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi açıq tender elan edir.
Elanda Zərdab şəhəri ərazisində yolların əsaslı təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Bəxtiyar Nurəliyev, Baş mühasib
Email : sheher.ied@zerdab-ih.gov.az
Əlaqə telefonnu: +994 51 598 27 46



**Tikinti şirkətləri üçün böyük fürsət - 18,5 MİLYON MANATLIQ TENDER.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tikilməkdə Olan Müəssisələrinin Müdiriyyəti açıq tender elan edir.
Elanda Bakı şəhəri , Sabunçu rayonu, Maştağa qəsəbəsində layihələndirilən İxtisaslaşmış Narkoloji Tibb Müəssisəsinin tikintisinin davamı (II mərhələ) nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əkrəm Səlifli, Satınalma üzrə mütəxəssis
Email : Ftprovision@gmail.com
Əlaqə telefonnu: +994 12 493 03 18



**Ağstafada yollar təmir olunacaq - TENDER KEÇİRİLİR.**

Ağstafa Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda yolların təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elmin Dəmirçiyev, Sektor müdiri-baş mühasib
Email : mail@agstafa-ih.gov.az
Əlaqə telefonnu: +994 22 222 32 41



**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ TENDER ELAN EDİR**

Azərbaycan Memarlıq Və İnşaat Universiteti açıq tender elan edir. Elanda 4 ədəd Universitet liftlərinin cari təmiri işlərinin satınalması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Səfərov Sarvan, Təchizat şöbəsinin müdiri
Email: servan_685@mail.ru
Əlaqə telefonnu: 0125106431



**HACIQABUL SU MELİORASİYA SİSTEMLƏRİNİN İSTİSMARI İDARƏSİ TENDER ELAN EDİR.**

Haciqabul Su Meliorasiya Sistemlərinin İstismari İdarəsi açıq tender elan edir.
Elanda cari təmir üçün tikinti materialların satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Həbibov Əlirza Balahəsən oğlu, Baş mühasib
Email : haciqabulssi@mst.gov.az
Əlaqə telefonnu: +994 55 642 25 66





**www.atmia.az**